*UOT 159.9*

***Yeganə Baxış qızı Əskərova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*Orcid id:0000-0002-0590-9630*

# DEVİANT DAVRANIŞIN PSİXOLOJİ MAHİYYƏTİ

***Егяна Бахыш гызы Аскерова***
*доктор философии по психологии, старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ПСИХОЛОГИЧЕСКАЯ СУТЬ ДЕВИАНТНОГО ПОВЕДЕНИЯ

***Yegana Bakhish Askarova***
*doctor of philosophy in psychology*
*head teacher of Azerbaijan State Pedagogical University*

# THE PSYCHOLOGICAL NATURE OF DEVIANT BEHAVIOR

**Xülasə.** İnsanın əməlləri və hərəkətləri cəmiyyətdə bərqərar olmuş əxlaqi normalara, mənəvi standartlara, hüquqi qanunlara uyğun gəlmirsə, bu deviant davranış hesab olunur. Məqalədə qeyd olunur ki, hər bir şəxsiyyət yaşadığı cəmiyyətdə formalaşmış əxlaqi, mənəvi, hüquqi normaları, mental xüsusiyyətləri bilməli və onlara riayət etməlidir. Bu işdə ailə, məktəb, ətrafdakı insanlar, ictimai təşkilatlar, mətbuat, radio və televiziya, sosial şəbəkələr və s. ona köməkçi olmalıdırlar. Təbii ki, bu cür davranış müxtəlif obyektiv və subyektiv amillərin təsirindən yarana bilər. Aydındır ki, hər hansı şəxsiyyətin əməl və hərəkətlərinin ictimai normalara uyğun olub-olmaması müəyyən meyara əsaslanaraq müvafiq qrup və təşkilatlar tərəfindən qiymətləndirilir. Məsələn, əxlaqi normalara uyğunsuzluq müxtəlif insan qrupları (iş kollektivi, qonşular, qohumlar və s.), hüquqi normalara uyğunsuzluq inzibati orqanlar (polis, məhkəmə, prokurorluq və s.) tərəfindən qiymətləndirilir və s. Məqalədə deviant davranışın mahiyyəti psixoloji baxımdan təhlil olunur və problemin aradan qaldırılması yollarından bəhs olunur.
***Açar sözlər:*** *deviant davranış, konflikt, cəmiyyət, əxlaq, şəxsiyyət, xarakter, sosial amil, ailə, məktəb*

**Резюме.** Девиантное поведение - это такой тип устойчивого поведения личности, которое не соответствует моральным нормам, духовным стандартам или юридическим законам, сформировавшимся в обществе. В статье подчеркивается, что каждая личность должна знать и соблюдать моральные, духовные, юридические нормы, ментальные особенности, сформировавшиеся в обществе, в котором он живет. В этом деле его помощниками должны стать семья, школа, окружающие, общественные организации, пресса, радио и телевидение, социальные сети и др. Естественно, такое поведение могло бы возникнуть под воздействием различных объективных и субъективных факторов. Понятно, что вопрос соответствия действия и поведения отдельно взятой личности общественным нормам оцениваются со стороны специальных групп и организаций. Например: несоответствие моральным нормам поведения расцениваются различными группами людей (рабочий коллектив, соседи, родственники и др.), а несоответствие юридическим нормам со стороны административных органов (полиция, суд, прокуратура и др.), и тд. В статье анализируется суть девиантного поведения с психологической точки зрения и говорится о путях решения данной проблемы.
***Ключевые слова:*** *девиантное поведение, конфликт, общество, мораль, личность, характер, социальный фактор, семья, школа.*

**Summary.** If a person's actions do not conform to moral norms, moral standards, and legal laws established in society, this is considered deviant behavior. It is mentioned in the article that every person should know and follow the moral, spiritual, legal norms and mental characteristics formed in the society in

which he lives. In this case, family, school, surrounding people, public organizations, press, radio and television, social networks, etc. they should help him. Of course, this kind of behavior can be caused by various objective and subjective factors. It is clear that whether the actions and actions of any individual are in accordance with social norms is evaluated by the relevant groups and organizations based on certain criteria. For example, non-compliance with moral norms is evaluated by different groups of people (work team, neighbors, relatives, etc.), non-compliance with legal norms is assessed by administrative bodies (police, court, prosecutor's office, etc.), etc. In the article, the essence of deviant behavior is analyzed from a psychological point of view, and ways to eliminate the problem are discussed.

***Keywords:*** *deviant behavior, conflict, society, morality, personality, character, social factor, family, school*

Hazırki şəraitdə insanlar arasında ictimaiyyətin qəbul etmədiyi bir çox davranışlar müşahidə olunur. Buna misal olaraq təhsildən yayınma, evdən qaçma, konfliktlərə qoşulma, aqressiv davranışlar, pozitiv maraqların və məqsədlərin olmaması, yalançılıq, qanunsuz hərəkətlərə meyllilik və sair hərəkətləri göstərmək olar. Bu cür hərəkətlər psixoloji və pedaqoji baxımdan deviant davranış kimi qiymətləndirilir. Rus alimi Y.V. Zmanovskaya görə, deviant davranış "şəxsiyyətin ən vacib ictimai normalara uyğun gəlməyən və istər cəmiyyətə, istərsə də onun özünə zərər verən stabil davranışıdır" (8, s.352). "Deviant" davranış (latınca - "deviation" - "kənara çıxma") probleminin sosioloji, tibbi, pedaqoji və psixoloji aspektlərdə tədqiqi Z. Freyd, E. Dyurkheym və başqa alimlər tərəfindən həyata keçirilmişdir. Z. Freyd özünün psixoanalizinə əsaslanaraq qeyd etmişdir ki, "Cinayətin əsasında onu törədənin zəif "eqo"su dayanır və bu da insanı normal davranışlardan kənara çıxmalara sövq edir " (9, s. 35). XX əsrin 60-cı illərindən sonra problemin daha geniş və hərtərəfli tədqiqatına başlanılmış və problemin tədqiqinə dair əsərlər yazılmışdır. XX əsrin sonlarında isə sosiologiya, korreksiyaedici psixologiya və pedaqogika elmlərinin uyğun sahələrini özündə birləşdirən "deviantologiya" elmi meydana gəlmişdir.

Müasir deviantalogiyanın əsasını qoyanlardan biri fransız sosioloqu Emil Dyurkheym hesab olunur. O, hələ 1897-ci ildə yazdığı "özünəqəsd" əsərində sosiologiya elminə "anomiya'' anlayışını daxil etmiş və bununla cəmiyyətdə böhranlar və radikal sosial dəyişikliklər zamanı yaranan qarışıqlıq və çaşqınlıq vəziyyətlərini ifadə etmişdir. Dyurkheym bunu cəmiyyətdə gözlənilməz iqtisadi tənəzzül və yüksəliş dövrlərində intiharların sayının artması nümunəsində təhlil etmişdir (2, s. 399).

Deviant davranış özündə 3 elementi birləşdirir: **İnsanın dəyərlərə və normalara (siyasi, mənəvi, hüquqi) münasibəti:** Hər bir şəxsiyyət yaşadığı cəmiyyətdə formalaşmış əxlaqi, mənəvi, hüquqi normaları, mental xüsusiyyətləri bilməli və onlara riayət etməlidir. Bu işdə ailə, məktəb, ətrafdakı insanlar, ictimai təşkilatlar, mətbuat, radio və televiziya, sosial şəbəkələr və s. ona köməkçi olmalıdırlar. **İnsanı qiymətləndirən qrup və təşkilatlar**: Aydındır ki, hər hansı şəxsiyyətin əməl və hərəkətlərinin ictimai normalara uyğun olub-olmaması müəyyən meyara əsaslanaraq müvafiq qrup və təşkilatlar tərəfindən qiymətləndirilir. Məsələn, əxlaqi normalara uyğunsuzluq müxtəlif insan qrupları (iş kollektivi, qonşular, qohumlar və s.), hüquqi normalara uyğunsuzluq inzibati orqanlar (polis, məhkəmə, prokurorluq və s.) tərəfindən qiymətləndirilir. **İnsanın davranışı:** İnsanın əməlləri və hərəkətləri cəmiyyətdə bərqərar olmuş əxlaqi normalara, mənəvi standartlara, hüquqi qanunlara uyğun gəlmirsə, bu deviant davranış hesab olunur. Təbii ki, bu cür davranış müxtəlif obyektiv və subyektiv amillərin təsirindən yarana bilər.

Rus tədqiqatçısı M.İ. Rojkov deviant davranışların motivasiyasını sosial və psixoloji amillərlə əlaqələndirir və onları 4 əsas qrupa ayırır (7, s.67):

- ■ şəxsiyyətin hüquqi və əxlaqi şüurundakı qüsurlar;
- ■ şəxsiyyətin tələbatlarının məzmunu;
- ■ şəxsiyyətin xarakterinin xüsusiyyətləri;
- ■ şəxsiyyətin iradi, emosional aləminin xüsusiyyətləri.

Deviant davranışın mərhələləri:

- ■ deviant davranışın simptomlarının əmələ gəlməsi;
- ■ bir sıra sosial tələblərə (ailə, məktəb və s. tərəfindən qoyulan tələblər) məhəl qoyulmaması, onların inkar edilməsi və onlara riayət edilməməsi;

■ ictimai normalar, qaydalar və tələblərdən getdikcə daha da kənara çıxmaların və ilkin qanuna zidd hərəkətlərin müşahidə olunması;

■ qanuna zidd hərəkətlərin ağırlığı ilə xarakterizə olunan davamlı deviant davranışın əmələ gəlməsi, daha sərt davranışlara sövq edən qruplara qoşulma;

■ ictimaiyyətin tələblərinə qətiyyən cavab verməyən daha təhlükəli və davamlı deviant davranış. Bu mərhələdə artıq körpülərin çoxu yandırılmışdır, yəni cəmiyyətə qarşı yadlaşma baş vermişdir və yaxşı bir sonluğun olması ehtimalı çox kiçikdir.

Deviant davranış əsasən neqativ olur. Məsələn, cinayətkarlıq, alkoqolizm, narkomanlıq, özünəqəsd, fahişəlik, terrorçuluq və s. Ancaq bəzi hallarda pozitiv deviasiyalar da mümkündür. Məsələn, orijinal yaradıcı təfəkkür üçün xarakterik olan kəskin fərdiləşmə. Bu hal çox yüksək istedadlı yaradıcı insanlarda müşahidə oluna bilir ki, bu da cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Bu cür hallar çox vaxt normalardan kənaraçıxma kimi qiymətləndirilsə də, cəmiyyət üçün çox faydalı hesab olunur. Asketizm, dahilik, müqəddəslik, novatorluq pozitiv deviasiyaların əlamətləridir.

V.A. Kleyberq isə neqativ və pozitiv deviasiyalarla yanaşı sosial-neytral deviasiyanı da qeyd edir. Məsələn, dilənçilik, səfillik və s. (4). Neqativ deviasiyanın 4 əsas tipi var: addiktiv, destruktiv, delikvient və autoaqressiv deviasiyalar.

Addiktiv (ingiliscədən "addiction"- "zərərli vərdiş", "meyl" kimi tərcümə olunur) davranış insanın müxtəlif vasitələrin (psixikaya təsir edən farmakoloji və qeyri-farmakoloji maddələr) köməyi ilə öz real psixi vəziyyətindən qaçmağa meyl etməsidir. Addiktiv davranışın aşağıdakı formaları var:

■ alkoqol və nikotin qəbulu;

■ narkotika da daxil olmaqla insanın psixi vəziyyətini dəyişdirən müxtəlif maddələrdən, dərmanlardan, toksiki vasitələrdən istifadə;

■ kompüter oyunları da daxil olmaqla müxtəlif qumar oyunlarında iştirak;

■ seksual addiktiv davranış;

■ yemək hərisliyi və ac qalma;

■ televiziyaya bağlılıq, aşağı ritm tezlikli musiqi dinləmək;

■ siyasət, din, sektantlıq, böyük idman;

■ öz psixikası ilə manipulyasiya.

Destruktiv (latıncadan tərcümədə "dağıdıcı" deməkdir) davranış dağıdıcı davranış olmaqla hər hansı bir şeyin: sakitliyin, dostluğun, razılaşmanın, əhval- ruhiyyənin, sağlamlığın, fiziki predmetlərin və s. dağıdılmasına yönəlmiş davranışdır. Destruktiv davranış insanın özünə, başqalarına, heyvanlara, təbiətə, gördüyü işə və s. münasibətdə dalaşqanlıq, dözümsüzlük, inadkarlıq, kobudluq, nifrət, qorxu, panika şəklində təzahür edir.

Delikvient (latınca "deliktum"- "qanunsuz hərəkət", ingiliscə "delinquency"- "qanunu pozma", "günahkarlıq") deviasiya fərdlərin antisosial, qanunsuz davranışlarıdır ki, bunlar həm ayrı-ayrı vətəndaşlara, həm də bütünlükdə cəmiyyətə böyük ziyan vura bilər. "Delikvient davranış" anlayışından kriminalogiya, sosiologiya, pedaqogika, sosial pedaqogika və s. elm sahələrinin nümayəndələri geniş istifadə edirlər.

Rus tədqiqatçısı V.V. Kovalev deviasiyanın təsnifatını aşağıdakı kimi vermişdir (5):

■ sosial-psixoloji deviasiyalar (antidistsiplinar, asosial, hüquqa zidd, autoaqressiv davranışlar);

■ kliniki-psixopatoloji deviasiyalar (patoloji və qeyri-patoloji);

■ Şəxsi dinamik deviasiyalar.

Sosioloqlar T.P. Korelenko və T.A. Donskix deviasiyaların aşağıdakı təsnifatını təklif edirlər:

■ qeyri-standart davranış (sosial davranış stereotipləri çərçivəsindən kənara çıxan, lakin cəmiyyətin inkişafında pozitiv rol oynayan hərəkətlər);

■ zahiri-destruktiv davranış (sosial normaların pozulmasına yönəlmiş destruktiv davranış);

■ daxili-destruktiv (öz şəxsiyyətinin dezinteqrasiyasına yönəlmiş davranış, yəni suisidal, konformis, narsistik, fanatik, autistik) davranış;

■ addiktiv davranış (xüsusi aktivlik yaradan vasitələrdən istifadə etməklə reallıqdan qaçmağa və arzu edilən emosiyanı əldə etməyə yönəlmiş davranış);

■ antisosial davranış (qanunların və insanların hüquqlarının pozulması).

Rus psixoloqu V.N. İvanov isə insan və cəmiyyət üçün təhlükəlilik səviyyəsinə görə deviasiyanı iki yerə ayırır (3, s.45-47);

■ kriminallığa qədərki səviyyə (əxlaq normalarının və davranış qaydalarının ictimai yerlərdə pozulması halları, psixikaya da dağıdıcı təsir göstərən alkoqollu, narkotik, toksiki maddələrdən istifadə və ciddi ictimai təhlükə törətməyən digər davranış formaları);

■ kriminogen səviyyə (cinayət-cəza tandemində əks olunan cinayətkar əməl və hərəkətlər).

Y.V. Zmanovskaya müxtəlif davranış deviasiyalarmın tipologiyasını ümumiləşdirərək davranış normalarının pozulması növlərinin və normadan kənar davranışın neqativ nəticələrinin əsas meyarını müəyyən etmişdir. Onun təsnifatında normadan kənar, qüsurlu davranışın 3 əsas qrupu diqqəti cəlb edir:

*antisosial* (delikvient) (hüquq normaları ilə ziddiyyət təşkil edən, sosial asayişi və ətrafdakı insanların əmin-amanlığını pozmağa yönəlmiş davranış);

*asosial* (amoral, əxlaqi-mənəvi normaları yerinə yetirməkdən yayman, şəxsiyyətlərarası münasibətləri korlayan davranış);

*autodestruktiv* (özünü məhv etməyə yönəlmiş), (suisidal, fanatik, autik, viktim, riskli, qida asılılığı, kimyəvi asılılıq yaradan davranış və s.).

Beləliklə, sosial deviasiyaların bir çox tipləri, növləri, formaları mövcuddur və ayrı- ayrı tədqiqatçılar onların müxtəlif təsnifatlarını təklif etmişlər. Təbii ki, bu çoxsaylı və rəngarəng deviasiyaların sistemli təsnifatının hazırlanması böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Rus alimi N.V. Maysak ilk dəfə olaraq belə bir təsnifatı hazırlamış və onu "Sosial deviasiyaların matrisası" adlandırmışdır (6, s.78-86). N.V. Maysak öz təsnifatında davranışın istiqamətinin xarakterinə görə deviasiyaları üç əsas növə ayırır:

*konstruktiv;

*autodestruktiv;

*zahiri destruktiv.

Deviasiyanın təzahür formasına görə isə onlar növlərə və yarımnövlərə bölünür. Məsələn, konstruktiv deviasiyaların yardımçı növlərinə müxtəlif yaradıcılıqlar (bədii, elmi, texniki, təşkilati, kompüter yaradıcılıqları) daxildir. Bədii yaradıcılıqda dahiyanə bədii əsərlərin yaranması, yüksək səviyyəli artistizm, ultra dəbli imic və s. sosial təqdir olunan qraffiti, tatuaj, "qara yumor", "sarı" jurnalistika və s. sosial neytral, aqressiv və ləkələyici "qraffıta", qara yumor", sadistik şer və karikaturalar sosial təqdir olunmayan asosial tipli, bədii vasitələrdən istifadə etməklə antisosial təbliğat, xuliqanlıq hərəkatı kimi qiymətləndirilən qrafika isə sosial təqdir olunmayan antisosial tipli deviasiyalara aiddir.

Qeyd etmək lazımdır ki, N.V. Maysakın tərtib etdiyi "Sosial deviasiyaların matrisası" cədvəli kifayət qədər universal olsa da, bəzi deviasiyalar orada özünə yer tapmamışdır. Bu cür deviasiyalardan biri də psixoloq və sosioloqların "deviant ana" adlandırdıqları fenomendir. "Deviant analıq" dedikdə ananın öz uşağını fiziki və emosional baxımdan inkar etməsi və müxtəlif formalarda (hipohimayə, hiperhimayə, avtoritarizm, fiziki və psixoloji zorakılıq və s.) onun psixi və fiziki sağlamlığına zərər vuran normadankənar davranış nəzərdə tutulur (1, s.324).

Öz uşağını hər hansı bir bəhanə ilə dünyaya gətirməkdən imtina etmək, dünyaya gəlmiş körpəni atmaq, uşaqların tərbiyəsi ilə məşğul olmamaq, onlara qarşı zorakılıq tətbiq etmək və s. deviant analığın təzahür formalarıdır. Çox təəssüflə qeyd etmək lazımdır ki, əvvəllər bu cür faktlara bədii əsərlərdə və filmlərdə qeyri-normal həyat tərzinin nəticəsi kimi rast gəlirdiksə, indi müasir cəmiyyətdə də bu cür hallar yüksələn sürətlə meydana çıxmaqdadır. Bu isə cəmiyyəti sosial fəlakətə doğru sürükləyən bir amildir. Buna görə də deviant analıq problemi son zamanlarda psixoloqların ən çox müraciət etdiyi problemlərdən biridir.

Tədqiqatçılar öz körpələrindən imtina edən, uşaqlarına qarşı zorakılıq göstərən, uşaqların tərbiyəsinə etinasızlıq göstərən və s. deviant anaların problemləri, bu problemlərin əmələ gəlmə səbəbləri və aradan qaldırılması üsullarını araşdırmaqla problemin həll edilməsi yollarını tapmağa cəhd edirlər. Məsələn, uşaqlarından imtina edən 400 qadın arasında aparılan psixoloji tədqiqatların nəticəsində müəyyən edilmişdir ki, bu qadınların əksəriyyətində "infantilisit kompleks" adlanan hal müşahidə olunur ki, bu da hamiləlik dövründə güclü depressiyalara məruz qalmanın nəticəsidir. Deviant analığın səbəbi kimi işsizlik, yoxsulluq, sabaha ümidsizlik, şəraitsizlik, fiziki və mənəvi zəiflik, tənhalıq, ekstremal vəziyyətlərdə özünü itirmək, səbirsizlik və s. bu kimi amilləri də göstərmək olar. Psixoloqlar göstərirlər ki, deviant analığın əsas səbəblərindən biri kimi bu qadınların uşaq-

lıqda öz analarından kifayət qədər qayğı, əzizləmə, diqqət görməməsi, əvəzində isə etinasızlıq, şiddət, qəddarlıq və s. ilə qarşılaşmasıdır. Deməli, bu problemin həlli yollarından biri valideynlik kimi çətin və şərəfli bir vəzifənin öhdəsindən gələ biləcək, öz uşağına sonsuz sevgi və qayğı göstərəcək, öz valideynlik vəzifəsinin bütün ağırlıqlarına dözəcək, cəmiyyətimizin gələcəyini uşaqlarsız təsəvvür etməyən vətəndaşların yetişdirilməsidir. Təbii ki, bütün deviasiyalarda olduğu kimi deviant analıq problemi də yalnız psixoloji problem deyil və buna görə də psixoloji üsullarla aradan qaldırıla bilməz. Burada sosioloji, pedaqoji üsullarla yanaşı dövlət qurumlarının da güclü dəstəyi zəruridir.

**Problemin aktuallığı**. Təhsildən yayınma, evdən qaçma, konfliktlərə qoşulma, aqressiv davranışlar, pozitiv maraqların və məqsədlərin olmaması, yalançılıq, qanunsuz hərəkətlərə meyllilik və sair hərəkətləri psixoloji və pedaqoji baxımdan deviant davranış kimi qiymətləndirilir. Hər bir şəxsiyyət yaşadığı cəmiyyətdə formalaşmış əxlaqi, mənəvi, hüquqi normaları, mental xüsusiyyətləri bilməli və onlara riayət etməlidir. Bu işdə ailə, məktəb, ətrafdakı insanlar, ictimai təşkilatlar, mətbuat, radio və televiziya, sosial şəbəkələr və s. ona köməkçi olmalıdırlar. Bu baxımdan deviant davranış və onun pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu kimi vacib bir mövzuya həsr olunması məqalənin aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi**. Elmi yenilik onunla bağlıdır ki, məqalədə deviant davranışın mahiyyəti ilə bağlı görkəmli psixoloqların yanaşmaları diqqətə çatdırılır, deviant davranış sosial-psixoloji problem kimi nəzərdən keçirilərək ayrı-ayrı mərhələlərinin səciyyəvi cəhətləri göstərilir və bu istiqamətdə aparılmış müxtəlif tədqiqatların nəticələri təhlil olunur.

**Problemin tətbiqi əhəmiyyəti**. Məqalədən ali və orta ixtisas məktəblərin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar yararlana bilərlər.

**Ədəbiyyat:**


1. Çələbiyev, N.Z. Ailə psixologiyası. -Bakı: Mütərcim, -2015. -422 s.
2. Дюркгейм, Эмиль. Самоубийства: социологический этюд. -М.: Изд-во “Мысль 2, 1994. -399 с.
3. Иванов, В.Н. Девиантное поведение: причины и масштабы // Социально- политическая журнал. -1995, с. 45-47.
4. Клейберг Ю.А. Психология девиантного поведения: Учеб. пособие для вузов. -М., -2001
5. Ковалев В.В. Психиатрия детского возраста. Руководство для врачей. -М.: Медцина , -1981.
6. Майсак, Н.В. Матрица социальных девиаций: классификация типов и видов девиантного поведения // Современные проблемы науки и образования, -2010, -78-86 с.
7. Воспитание трудного ребенка. Дети с девиантными поведениями. / Под ред. М.И. Рожкова -М.: Владос, -2003. -67 с.
8. Змановская Е.В. Девиантное поведение личности и группы: учеб.пос-е. -СПб.: Питер, -2011. -352 с.
9. З. Фрейд. Введение в психоанализ. Лекции. -М.: Наука, -1989. - 35 с.


**E-mail: y.askerova@inbox.ru**

**Rəyçilər**: *psxol.ü.fəls.dok. dos.* **Ü.A. Əfəndiyev**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 25.08.2023